# Sosial-iqtisadi inkişafın Qəbələ nümunəsi

## *Sosial-iqtisadi inkişafın yekunları və qarşıda duran vəzifələr müzakirə olunmuşdur.*



***Qəbələ Rayon İcra Hakimiyyətində 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş geniş şura iclası keçirilib.***

Toplantıda RİH başçısı yanında şuranın üzvləri, idarə, müəssisə və təşkilat rəhbərləri, inzibati ərazi nümayəndələri, bələdiyyə sədrləri və rayonun iş adamları iştirak ediblər.

Yığıncaqda oktyabrın 9-da Prezident cənab İlham Əliyevin Nazirlər Kabinetinin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr edilmiş iclasındakı nitqindən irəli gələn vəzifələr və bu ilin doqquz ayında Qəbələ rayonunda sosial-iqtisadi sahədə görülən işlər və qarşıda duran vəzifələr müzakirə olunub.

İclasda Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev geniş hesabat məruzəsi edib. ***(Hesabat məruzəsi qəzetin bu nömrəsində dərc olunub).***

Müzakirələr zamanı rayon təhsil şöbəsinin müdiri əvəzi Yaşar Nəzirov, 10 nömrəli Yol İstismarı MMC-nin rəisi Naməddin Qədirov və Qəbələ Paylayıcı Şəbəkə Sahəsinin baş mühəndisi Nurməmməd Naibov məruzə ətrafında çıxış ediblər.

İclasda müzakirə edilən məsələ ilə bağlı müvafiq qərar qəbul olunub.

Yekunda dövlət qulluqçularının peşə bayramı ilə əlaqədar ölkə başçısının 21 iyun 2017-ci il tarixli 3015 nömrəli Sərəncamına əsasən "Tərəqqi" medalı ilə təltif olunan Kürd kənd inzibati ərazi nümayəndəsi Alıyev Eyyub Hüseyn oğluna həmin medalın təqdimatı olub.

**"Qəbələ"**

**Fotolar İlkin Vəlizadənindir.**



# Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına dair hesabat

# MƏRUZƏSİ

**Hörmətli yığıncaq iştirakçıları, xanımlar və cənablar!**

Prezident cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.

İclasda bu ilin doqquz ayında ölkəmizin uğurla və hərtərəfli inkişaf etdiyini, bütün sahələrdə dinamik inkişafın təmin edildiyini deyən cənab İlham Əliyev iqtisadi göstəricilərimizin müsbət olduğunu vurğulamışdır.

Dövlətimizin başçısı ilin doqquz ayında qeyri-neft iqtisadiyyatının 2,5 faiz artdığını qeyd edərək, bunun son illərdə aparılan siyasətin nəticəsi olduğunu bildirmişdir. Bu dövrdə qeyri-neft sektorunun sənaye hissəsində artımın 3,1 faiz, kənd təsərrüfatında 2,8 faiz təşkil etdiyini, xarici ticarət dövriyyəsinin 7 faiz artdığını diqqətə çatdıran cənab İlham Əliyev doqquz ayda Azərbaycanın valyuta ehtiyatlarının 42 milyard dollar səviyyəsində olduğunu demişdir.

"Biz uzunmüddətli dayanıqlı inkişaf barədə düşünürük", - deyən dövlətimizin başçısı iqtisadi imkanlarımızın müstəqilliyimizin əsas şərtlərindən biri olduğunu bildirmiş, 4,5 milyard dollar həcmində artan valyuta ehtiyatlarımızı isə doqquz ayın ən uğurlu göstəiricilərindən biri kimi səciyyələndirmişdir.

Cənab İlham Əliyev bu dövrdə yeni iş yerlərinin yaradılması prosesinin uğurla getdiyini, doqquz ayda 226 min yeni iş yerinin açıldığını qeyd etmişdir. İlin ötən dövrü ərzində ölkədə əsas infrastruktur, o cümlədən yeni yolların çəkilişi, içməli su, qazlaşdırma, elektrik enerjisi təminatı, meliorasiya ilə bağlı layihələrin uğurla icra olunduğunu deyən dövlətimizin başçısı, həyata keçirilən bu cür tədbirlərin regionların uğurlu inkişafına və ölkəmizin ümumi iqtisadi tərəqqisinə təkan verdiyini vurğulamışdır. Bu il yeni məktəblərin, tibb ocaqlarının tikildiyini və əsaslı təmir edildiyini söyləyən cənab İlham Əliyev həmçinin məcburi köçkünlərin sosial məsələlərinin həlli, onların mənzillə təmin edilməsinin də diqqət mərkəzində olduğunu bildirmişdir.

Cocuq Mərcanlının bərpasını və kənddə sosial infrastrukturun yaradılmasını tarixi hadisə adlandıran dövlətimizin başçısı 2018-ci ildə də məcburi köçkünlərin yeni mənzillərlə təmin ediləcəyini və bu layihənin davam etdiriləcəyini bildirmiş, indiyədək 250 mindən çox soydaşımızın dövlət tərəfindən mənzillərlə təmin olunduğunu qeyd etmişdir.

Dövlətimizin başçısı bu ilin doqquz ayında ölkəmizdə idman sahəsində böyük uğurlar qazanıldığını, ölkədə İslam Həmrəyliyi Oyunlarının yüksək səviyyədə təşkil olunduğunu vurğulamışdır.

Cənab İlham Əliyev 2017-ci ilin doqquz ayında beynəlxalq arenada mövqelərimizin möhkəmləndiyini, Azərbaycanın dünyada etibarlı tərəfdaş kimi tanındığını söyləmiş, bu dövrdə 14 dəfə xarici ölkəyə səfər etdiyini, 10-dan çox dövlət və hökumət başçısının isə ölkəmizə gəldiyini və bu səfərlərin hər birinin ölkəmiz üçün faydalı olduğunu bildirmişdir.

Çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan cənab İlham Əliyev bununla bağlı mövqeyimizin dəyişməz qaldığını, ərazi bütövlüyümüzün danışıqların predmeti olmadığını və Ermənistanın danışıqları pozmağa nail ola bilmədiyini demiş, Azərbaycanın öz torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcəyini qeyd etmişdir.

Cənab İlham Əliyev bu ilin doqquz ayında ölkəmizin neft-qaz sektorunda da əlamətdar hadisələrin baş verdiyini, ötən ay "Azəri", "Çıraq" və "Günəşli" yataqları üzrə yeni Saziş imzalandığını, "Cənub Qaz Dəhlizi" layihəsi ilə bağlı işlərin uğurla getdiyini demişdir. Əsas məqsədin qeyri-neft sektorunun inkişafı olduğunu söyləyən dövlətimizin başçısı neftdən gələn gəlirlərin insan kapitalının inkişafına yönəldiyini diqqətə çatdırmışdır.

Yaxın vaxtlarda Bakı-Tbilisi-Qars dəmir yolunun rəsmi açılışının olacağını, Azərbaycanın iştirak etdiyi, bir çox hallarda təşəbbüskarı olduğu layihələrin qlobal xarakter daşıdığını və bunların ölkəmizin dünyada mövqeyinin daha da güclənməsinə töhfə verdiyini diqqətə çatdıran dövlətimizin başçısı bu ilin doqquz ayında ölkədə iqtisadi islahatlarla bağlı ciddi addımların da atıldığını, sahibkarlara hərtərəfli şərait yaradıldığını, Strateji Yol xəritələrinin icrasının təmin edildiyini, investisiya təşviqi mexanizminin işə düşdüyünü bildirmişdir.

Cənab İlham Əliyev indiyədək 200-dən artıq investisiya təşviqi sənədinin verildiyini, bunun nəticəsində Azərbaycana özəl sektor tərəfindən 1,7 milyard manat sərmayə cəlb olunduğunu, ölkədə ixracın təşviqi mexanizminin işə düşdüyünü qeyd etmişdir.

2017-ci il Azərbaycan tarixində ciddi iqtisadi islahatlar ili kimi qalacağını deyən cənab İlham Əliyev 140 ölkə arasında rəqabətliliyi əks etdirən Davos Ümumdünya İqtisadi Forumunun hesabatına görə, ölkəmizin 37-ci pillədən 35-ə qalxdığını və MDB məkanında liderliyini qoruduğunu bildirmişdir.

**Hörmətli tədbir iştirakçıları!**

2017-ci ilin 9 ayı bütün ölkədə olduğu kimi, Qəbələ rayonunun da ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatı əlamətdar hadisələrlə zəngin olmuşdur.

İlin ötən dövrü ərzində iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə 126.100 min manatlıq məhsul istehsal edilmiş, ötən ilin müvafiq dövrünə nisbətən ümumi məhsul buraxılışı rayon üzrə 5.909 min manat, yaxud 4,9 % artmışdır. Keçən ilin müvafiq dövrünə nisbətən ümumi məhsul buraxılışı sənayedə 4.776 min manat, yaxud 26,4 %, kənd təsərrüfatında 1.116 min manat, yaxud 2,1 %, nəqliyyatda 95 min manat, yaxud 3,5 %, ticarətdə 2.192 min manat, yaxud 8,9 % artmış, rabitədə 83 min manat, yaxud 9,4 %, tikintidə 2.187 min manat, yaxud 9,5 % azalmışdır.

Bu dövrdə adambaşına düşən ümumi məhsul buraxılışı 1.197 manat təşkil etmişdir.

9 ay ərzində sənaye müəssisələrində çalışan 1.438 nəfər işçinin orta aylıq nominal əmək haqqı 330 manat olmuşdur.

Əsas kapitala yönəlmiş investisiyanın həcmi 21.491 min manat, tikinti quraşdırma işlərinin həcmi isə 20.991 min manat təşkil etmişdir.

Yarım il ərzində rayon mənzil istismar və kommunal müəssisələr kombinatında 108 nəfər, Qəbələ Təmir Tikinti Şirkəti MMC-də 110 nəfər, qaz istismarı idarəsində 25 nəfər, 6 saylı Texnoloji Nəqliyyat Departamentində 10 nəfər, Azərişıq ASC Şimal-Qərb Regional Elektrik Təchizatı və Satışı İdarəsində 7 nəfər, Qəbələ Beynəlxalq Hava Limanında 20 nəfər - cəmi 280 nəfər müvafiq işlə təmin olunmuşdur.

Qeyri məşğul əhalidən 20 nəfər işaxtaran qadın xalçaçılıq üzrə peşə kursuna cəlb edilmiş, 19 nəfər həmin kursu bitirmiş, onlardan 9 nəfəri işlə təmin edilmişdir.

"Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 7 aprel 2016-cı il tarixli, 1941 nömrəli Sərəncamının icrası ilə əlaqədar müvafiq işlər davam etdirilmiş, 9 ay ərzində 3-ü xidmət, 13-ü kənd təsərrüfatı sahəsində olmaqla 16 nəfər özünüməşğulluq proqramının iştirakçısı öz bizneslərinə başlamaları üçün tələb olunan aktivlərlə təmin edilmişdir. Həmin vətəndaşlardan 8 nəfər ətlik-heyvandarlıqla, 4 nəfər südlük-heyvandarlıqla, 1 nəfər arıçılıqla, 1 nəfər kiçik iaşə xidməti, 1 nəfər kompüter təmiri, çap və poliqrafiya, 1 nəfər avtomobil təmiri sahəsində fəaliyyət göstərir. Özünüməşğulluq proqramının iştirakçılarından 7 nəfərə 27 baş iri buynuzlu heyvan, 5 nəfərə 122 baş xırdabuynuzlu heyvan, 1 nəfərə kompüter və çap avadanlığı, 1 nəfərə 15 arı ailəsi, 1 nəfərə avtomobil təmiri üçün alətlər, 1 nəfərə isə qəlyanaltı üçün tələb olunan avadanlıqlar verilmişdir.

**(Ardı 4-cü səhifədə).**